# *Ekspert:* "ECO-nun Zirvə görüşü Azərbaycan, üzv ölkələr və region üçün yeni perspektivlər yaradır"

**"İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşü beynəlxalq münasibətlər sistemində islam ölkələrinin qarşılıqlı əməkdaşlıq potensialını nümayiş etdirmək baxımından böyük əhəmiyyət kəsb edir. Bu cür yüksəksəviyyəli tədbirlər yalnız siyasi dialoqu gücləndirmir, həm də iqtisadi, mədəni və təhlükəsizlik sahələrində konkret təşəbbüslərin formalaşdırılmasına təkan verir. Azərbaycan üçün bu Zirvə görüşü həm regional, həm də qlobal miqyasda mövqeyini daha da möhkəmləndirmək üçün əlamətdar hadisədir".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyinin sədri Eyyub Kərimli söyləyib. O bildirib ki, Azərbaycan üçün ECO-nun Zirvə görüşü bir neçə vacib aspektdə əhəmiyyətlidir. Əvvəla, bu platforma vasitəsilə ölkəmiz öz xarici siyasət kursunu islam aləmi ilə daha sıx koordinasiya edə bilər. Qarabağ məsələsində Azərbaycanın ədalətli mövqeyinin İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlər tərəfindən dəstəklənməsi, beynəlxalq ictimaiyyətdə haqlı mövqeyin tanıdılması baxımından vacibdir.

Bundan əlavə, Azərbaycanın təşəbbüsü ilə ticarət, enerji, nəqliyyat və turizm sahələrində yeni əməkdaşlıq formatlarının təşviq edilməsi mümkündür. Xüsusilə Orta dəhliz və Zəngəzur dəhlizi kimi nəqliyyat layihələrinin ECO çərçivəsində müzakirəsi Azərbaycanın regiondakı strateji rolunu daha da artırır.



"ECO-nun 17-ci Zirvə görüşü iştirakçı ölkələrə qarşılıqlı iqtisadi asılılığın azaldılması və ortaq iqtisadi layihələrin həyata keçirilməsi üçün mühüm platforma təqdim edir. Qlobal ərzaq və enerji təhlükəsizliyi məsələləri fonunda üzv ölkələrin resurs potensialı birgə səylərlə səmərəli idarə oluna bilər. Birgə sərmayə fondlarının yaradılması, İqtisadi Əməkdaşlıq Təşkilatı daxili ticarət proqramlarının genişləndirilməsi və texnologiya transferi bu baxımdan xüsusilə aktuallaşır. Bundan əlavə, islamofobiya ilə mübarizə, təhsil və elm sahələrində ortaq layihələrin təşviqi, qadınların və gənclərin inkişafına yönəlik proqramların reallaşdırılması İqtisadi Əməkdaşlıq Təşkilatının gündəliyində prioritet istiqamətlər kimi qalmaqdadır", - deyə E.Kərimli vurğulayıb.

Ekspertin sözlərinə görə, Zirvə görüşü təkcə üzv dövlətlər üçün deyil, bütövlükdə region üçün sabitlik və inkişaf imkanları yaradır: "Orta Şərq, Qafqaz, Mərkəzi Asiya və Afrikada baş verən geosiyasi proseslər fonunda İqtisadi Əməkdaşlıq Təşkilatının vahid və prinsipial mövqe nümayiş etdirməsi beynəlxalq təhlükəsizlik sistemində yeni dinamika yarada bilər.

Regional nəqliyyat və enerji layihələrinin inkişafı, tranzit ölkələrin rolunu artırmaqla, həm də ticarət əlaqələrinin genişlənməsinə şərait yaradır. Eyni zamanda ekoloji problemlər, su ehtiyatlarının idarə olunması, iqlim dəyişikliyi kimi qlobal çağırışlara qarşı ortaq mexanizmlərin formalaşdırılması zəruridir.

ECO-nun 17-ci Zirvə görüşü yalnız bir diplomatik tədbir deyil, eyni zamanda islam dünyasının ortaq inkişaf və həmrəylik vizyonunun formalaşdırılması üçün strateji imkan pəncərəsidir. Azərbaycan üçün bu görüş iqtisadi diplomatiyanın gücləndirilməsi, regional liderliyin möhkəmləndirilməsi və islam həmrəyliyinin təcəssüm etdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Görüş çərçivəsində qəbul ediləcək qərarlar və irəli sürüləcək təşəbbüslər gələcəkdə daha ədalətli və davamlı beynəlxalq münasibətlər sisteminin qurulmasına töhfə verə bilər.

Azərbaycan.-2025.- 6 iyul (№ 136).- S.4.